# "Azərbaycan teatrının boyuna kəfən biçə-biçə..." – "QAĞAYI"

**Gecikmiş yaz havası var, aktrisa Aygün Fətullayevanın dəvətilə gəlmişəm, Bakı Musiqi Akademiyasının önündə son on beş dəqiqəni siqaretə həsr etdiyim vaxt uzaqdan aktyor Ayşad Məmmədov görünür. Hasarla dərdləşən, üsyan edən, alınmayan bir ailənin alkaş Hüseyni. Bilmirəm, nədənsə hörmət etdiyim insanlara qarşı qəribə bir kompleksim var. Məsələn, əslində çox istəsəm də Ayşad bəyə yaxınlaşıb salamlaşmağa çəkinirəm. İlk dəfə kitabımın təqdimatında tanış olmuşduq. Yoldaşı İlqarə xanımla birgə gəlmişdilər. Şair Kamal Hüseynzadə ilə isə elə ilk göz-gözə gəldiyimiz vaxt yaxınlaşıb bir-birimizlə salamlaşırıq. Bəlkə də məndəki bu kompleks yaşla bağlıdır. Siqaretimin son tüstülərini də ciyərimə çəkib içəri daxil oluram.**

Açığı, buraya ilk gəlişimdir. Əsərlə tanışam. Çexovun "Qağayı"sıdır. Yerimi tapıb əyləşirəm. Zalı müşahidə edirəm. Yavaş-yavaş əyləşdiyim sıradakı yerlər dolmağa başlayır. Məndən sağda arada bir oturacaq boşdur, ondan sonra iki gənc oğlan əyləşib, solumdakı oturacaq da boşdur. Elə bu məqam Ayşad bəy yaxınlaşır, gözlərini qıyır, gəlib sağımdakı yerdə əyləşir. Niyə məhz bu yerdə? O əyləşən kimi nəhayət özümdə salamlaşmaq cəsarətini tapıram. "Salam, Hasar müəllim" deməkdən özümü güclə saxlayıram. "Salam"dan başqa artıq bir kəlmə kəsmirik. Sanki aramızda böyük bir hasar var. Deyəsən, iki sıra qarşıda qızı əyləşib, ara-sıra onunla danışır.

*- Bağışlayın.*

Yerinə əyləşmək üçün keçən adamlar tez-tez üzr istəyirlər.

Sağımda əyləşən iki oğlandan biri dodağının altında nə mızıldandısa, qulağım almadı. Ayağa durduqlarını isə gördüm. Sevgilisilə keçən oğlan əsəbi halda dedi:

*- Yol verməlisən də. elə də deyirsən ki...*

Deyəsən, "çox sağ ol" deməyi unutmuşdu.

Ayşad bəy uzun-uzun vurnuxandan sonra nəhayət yerini dəyişib qızına yaxın bir yerdə əyləşir.

***

Zalın içindən aktyorlar qaça-qaça səhnəyə çıxırlar. Birazdan ziyalılar, yazıçılar, həkimlər və digər ailələrdən olan savadlı qızlar görünəcək. Qırx yaşlı istedadlı aktrisa, amma həddindən artıq şöhrətpərəst, xəsis və eqoist, bankda 70.000 pulu olduğu halda, oğluna kömək etməyən, xidmətçilərin haqqını kəsən, onları incidən, ərinin ölümündən sonra sevgisini ortabab yazıçı olan 39 yaşlı Triqorinə verən İrina Nikolayevna (Kəmalə Müzəffər), yazdıqları yüksək sənət nümunəsi olmayan, mülkədar qızı gənc Nina Zareçnayanı (Səbinə Məmmədova) yoldan çıxarıb həm İrinanı qısqandıran, həm də Ninanı onu sevən gənc yazıçı Konstantindən (Bəhram Əliheydər) soyudan Triqorin (Şövqi Hüseynov). Tamaşa boyu alınmayan talelər görürük. Nina aktrisalığa başlasa da, Triqorinin guya gənc qızların psixologiyasına bələd olmaq istəyi, əslində isə saxtakarlıqdan başqa bir şey olmayan bu davranış onu sarsıdır. Nə Nina tanışlarının gözündə əvvəlki qızdır, nə də onun gözündə insanlar. Konstantinin qurduğu tamaşada qağayı olan bu qız həqiqətən də qağayı taleyini yaşamağa başlayır. Köksündən yaralanmış qağayı...

Konstantinin yazdığı pyesin qayəsi budur ki, səhnədə hadisələr real həyatdakı kimi yox, xəyallarda olduğu kimi canlandırılmalıdır. O, teatr və dramaturgiyada yeni bir formanın tərəfdarıdır. Bu pyesi təcrübə üçün malikanədə olan həvəskar gənclərin iştirakı ilə tamaşaya qoyur. Hamı, Nina da daxil olmaqla, rolunu məharətlə ifa edir. Ancaq pyes insanlarda bədbinlik yaradır, bəyənən olmur. Gənc dramaturq Konstantin 2000 il sonranı təsvir edib. Guya dünyada nümunə üçün heç nə qalmayıb. Heyvanlar da məhv olub. Bütün canlılar suya, daşa çevirilib, bulud olub.

Tamaşanı izlədikcə qəribə bir ab-havaya qərq olursan. Tamaşa içində tamaşa izləyirsən. Zal-səhnə sərhədləri əriyib, qəfildən Konstantin zala enir, tamaşaçı sıralarının arasında gəzir, hamıya baxa-baxa danışır, ənənəvi teatra üsyan edir.



Yaxud da Triqorinlə Nina elə düz zalın ortasındaca sevişirlər. Bu məqamda tamaşaçıların reaksiyalarına fikir verirəm. Qızları ilə oturmuş ananın "bıy" eləməsi, qızların bir-birinə nəsə pıçıldayıb gülüşməsi də diqqətimdən yayınmır.

Rejissor Nicat Kazımov "Qağayı" nın qəhrəmanlarını "Qu gölü"nün sədaları altında bizə təqdim edir. Çaykovskinin bir romansı, kilsə musiqisi, sentimental valsı... Çaykovski ilə Çexov həyatda dost olublar, amma birlikdə yaradıcılıq münasibətləri olmayıb. Çaykovski "Qağayı" əsərindən beş il əvvəl "Sonalar gölü" baletini yazıb.

*Səhnə bədbəxt insanlarla doludur. Əslində isə təkcə səhnə yox, elə ətrafımız da. Məsələn, İrinanın qardaşı Pyotr Nikolayeviç Sorin (Kərəm Hadızadə). İrina onu Petruşa deyib çağırır. Arxa sırada əyləşən tamaşaçılardan kimsə tez-tez bu Petruşa xitabını eşidəndə gülür, hətta dözməyib yanındakına "yox bir, petux" deyib aşağı səslə şaqqanaq da çəkir. Petruşa bəxti gətirməyən adamlardan biridir. O, gəncliyində istedadlı olmamağına baxmayaraq yazıçı olmaq istəsə də, ola bilməyib. Daha sonra natiqliyə meyl edib, amma danışa bilməyib. Ailə qurmaq istəyib, bu da alınmayıb. Heç özünü qadınlara sevdirə də bilməyib. Həmişə nədənsə şəhərdə yaşamaq istəsə də, kənddən kənara çıxa bilməyib. Onda alınan yeganə şey 25 il məhkəmədə işləməyidir. Ki, bunu da o özü istəməyib. Günboyu nə qədər Sorinlərlə rastlaşırıq. Elə götürək bəzi taksi sürücülərini. Biraz dodaq dərbəşdirən kimi məlum olur ki, birinin əvvəllər babat imkanı olub, biri cavanlıqda yaxşı futbolçu imiş, bir başqası nə bilim, nə imiş. Əslində bu adamlar alınmayan talelərilə bu cür təsəlli olunurlar. Amma onlar da Sorin kimi istəmədikləri bir işə ömürlərini sərf edirlər. Və bəlkə də elə bacardıqları ən yaxşı iş budur.*

Tamaşanın Maşası (Aygün Fətullayeva) isə Konstantini sevir. Onun qurduğu tamaşada Ninanın rol almağına acıqlanır. Konstantini sevib amma sevgisinə qarşılıq ala bilməyəndə məcburən sevmədiyi müəllim Semyon Semyonovla evlənir. Sonra buna peşman olub, uşağını və ərini atıb atası evin dönərək özünü Konstantinə sevdirmək barədə xəyallar qurur.

Semyon isə Maşanı saf məhəbbətlə sevir, Maşanın onunla Konstantinin acığına evlənəcəyini bu zamana kimi ağlına da gətirməyib. O ayda aldığı 23 manat hesabına özünü, anasını, iki bacısını, qardaşını dolandırmalıdır. Və pyesin elə ən saf qəhrəmanı da Semyondur.

Axxx...

*Bir anlıq Semyonun adını dəyişib Əhməd, Rasim, Arif eləsən, heç nə dəyişməz. Bircə fərq var - Semyon Maşaya xəyanət etmir. Bizim cəmiyyətdə isə nə qədər Semyon olsan da, gözün mütləq başqa qadınlarda gəzəcək.*

Alınmayan talelərin fonunda alınan bircə şey var - tamaşa! Tamaşaçının ara-sıra özünü alqışa qapdırması, əl çalması, tamaşanın gedişatını, ruhunu tutmasından xəbər verir.

Tamaşaçıların içində səhnədəki obrazların talelərini yaşayan insanlar var, buna inanıram.

*Konstantin nəhayət, bu fikrə gəlir ki, məsələ köhnə ya yeni formada deyil. Yazıçı əsərini yazarkən forma haqda fikirləşməli, ürəyindən gələni yazmalıdır. Amma əslində Konstantinin bədbəxtliyi yazıb-yazmaması ilə bağlı da deyildi. Əgər anası gözünün ağı-qarası bircə balası Konstantinə həqiqi analıq eləsəydi, pullarını Triqorinə yedirdib oğlunu maddi çətinliyin içində buraxmasaydı, sevdiyi gözəl Nina onu anlasaydı, "məşhur yazıçı" Triqorin də ən adi əxlaq normalarını pozub öz gələcəklərinə böyük ümidlə baxan bu iki gənc sənət vurğunlarının həyatını zəhərləməsəydi Konstantin intihar etməyəcəkdi.*

"Qağayı"da hər şey var. "Qağayı" da hər bir real ədəbiyyat kimi həm həyatdan, həm də Çexovun özü kimi teatr üçün yazan insan üçün ən vacib olandan bəhs edir. Bəs deyirlər, tamaşaçı yoxdur?

Zalda bir dənə də olsun boş yer yox idi. Və hərdən mən 80 il bundan əvvəl şair, dramaturq, esseist Qarsia Lorkanın bu fikirlərilə razılaşıram.

"Hər gün teatrın böhran keçirdiyini eşidirəm. Nə qədər tanış sözlər! Niyə tanış, çünki bu günümüzdə də teatrdan gileyli adamlar məhz bu cür söylənirlər. Yazmaq istedadı özfəaliyyət səviyyəsində olan dramaturqlar, uğursuz rejissorlar, iddiası imkanından öndə olan deyingən aktyorlar, onlara ruporluq edən və qalmaqal yaratmaqdan başqa əlindən bir iş gəlməyən dörd-beş jurnalist sevinə-sevinə teatrın can verdiyini, teatrın reanimasiyada olduğunu, hətta öldüyünü elan edirlər. Bədbin proqnoz həvəskarı olan belə insanlar bir vaxt kino meydana çıxanda teatrı reanimasiyaya göndərdilər, başqa bir vaxt televiziya evlərə daxil olanda teatrın artıq öldüyünü elan etdilər, internet əsrində isə teatrı ədəbərkanla dəfn edib yumşaq desək, rəhmət oxudular, amma bütün bunlara rəğmən, teatr ölmədi, yaşadı, insanların bu gözəl sənətə olan mənəvi ehtiyacını ödəməkdə davam etdi".

**Yəni açıq desəm, mənə elə gəlir ki, doğrudan da illərdir Azərbaycan teatrının boyuna kəfən biçə-biçə insanları bu ölümə inandırıblar. Ölü isə uzağı üç il ziyarət edilir, sonra isə yavaş-yavaş unudulur.**

**Teatr isə...**

**Ölməyib!**

**Unudulmamalıdır!**

**Eminquey**

ədalət.- 2022.- 29 mart.- S.4.